MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 73**
**ORCID: 0009-0003-6935-8676**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0255**

**Sevinc Ələkbər qızı Ələsgərova**
**Azərbaycan Rəssamlıq Akademiyasının dissertantı**
**e-mail: sevaaleskerova62@gmail.com**

# XALQ RƏSSAMI MARAL RƏHMANZADƏ YARADICILIĞINDA NEFT MÖVZUSUNUN BƏDİİ-ESTETİK İFADƏSİ

**Xülasə:** XX əsrin ortalarında Azərbaycan təsviri sənətində sənaye mövzusu, xüsusilə neft sahəsi ətrafında formalaşan motivlər, sosialist realizmi kontekstində mühüm yer tuturdu. Bu sahədə Xalq rəssamı Maral Rəhmanzadənin rolu xüsusilə diqqətəlayiqdir. Rəssamın 1940-cı illərdən etibarən, xüsusilə "Neft" (1947) və "Neft daşları" (1956-1957) qrafik silsilələri, eləcə də "Bizim Xəzərdə" (1957) albomuna daxil olan əsərləri, Abşeron torpağının neftlə bağlı zəngin mənzərəsini tarixi və bədii ardıcıllıqla təqdim edir. O, neft buruqları, çənlər, estakadalar kimi texnoloji elementlərə estetik forma qazandıraraq sənaye motivini lirik ovqata çevirmişdir. Fəhlə əməyinin qəhrəmanlaşdırılması, insan-sənaye qarşıdurmasının bədii həlli və neftçilərin obrazları onun yaradıcılığında mərkəzi mövzulardan birinə çevrilmişdir. Maral Rəhmanzadə sənaye mənzərəsindəki sərtliklə poeziyanı birləşdirərək, Azərbaycan təsviri sənətində neft mövzusuna xüsusi müraciət edən rəssamlarından biri olmuşdur.

Məqalədə bu mövzunun Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığında necə təqdim olunduğu və rəssamın neft mövzulu ("Fəvvarə", "Tanker dənizə çıxır", "Neft çıxaran qurğu", "Dənizdə buruqlar", "Neft nəqli", "Neft çənləri", "Xəzərin sərvətləri" və s.) əsərlərinin təsviri sənət tarixindəki əhəmiyyəti təhlil olunur.

**Açar sözlər:** Maral Rəhmanzadə, Azərbaycan təsviri sənəti, neft mövzusu, qrafika, sosialist realizmi, sənaye mənzərəsi, qadın rəssamlar.

Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığında neft mövzusu xüsusi əhəmiyyət kəsb edir. Bu mövzu daha çox onun qrafik əsərlərində öz əksini tapmış və zəngin bədii üslub vasitəsilə təqdim olunmuşdur. Neft sənayesi və onun ətrafında formalaşan əmək – neftçi obrazları rəssamın tematik yaradıcılığının əsas istiqamətlərindən biri olmuşdur. Bu istiqamətdə ən mühüm işlərdən biri 1947-ci ildə ərsəyə gələn "Neft" adlı 10 vərəqdən ibarət litoqrafiya silsiləsidir. Bu silsilədə Maral Rəhmanzadə Abşeron torpağının əsrarəngiz və simvolik obrazını yaratmaq məqsədi ilə çıxış edirdi. Yeraltı sərvətlərlə zəngin olan doğma yurdun müxtəlif dövrlərinə aid neft hasilatı mənzərələri burada ardıcıllıqla verilir.

Qeyd edək ki, Maral Rəhmanzadə neft mövzusuna müraciət edən ilk azərbaycanlı qadın rəssam idi. *"Maral Rəhmanzadənin adı nəinki ilk dəfə bu mövzuya müraciət edən rəssamların sırasında çəkilməli, xüsusi qeyd edilməlidir ki, o, sənaye mənzərəsi janrında yaddaqalan əsərlər müəllifi olan ilk azərbaycanlı qadın rəssamıdır. Onun müşahidəçilik ustalığını təsdiqləyən əsas cəhətlərdən biri dəmir qalaqlarında, neft anbarları olan iri çənlərdə, dəmir estakadalarda, ciddi landşaftda sənaye mənzərəsinin gözəlliyini görə bilməsidir" (Axundova N. 2014. s.40).*

Maral Rəhmanzadənin yaradıcılığında neft mövzusu demək olar ki, 1940-cı illərdən etibarən geniş vüsət almışdır. Rəssamın 1940-cı ildə yaradılmış "Fəvvarə" əsəri bu mənada diqqətçəkəndir. Bu əsər onun neft mövzusuna ilk ciddi yanaşmalarından biri olub və sənaye motivinin dramatik ifadəsi baxımından xüsusi yer tutur.

Bu avtolitoqrafiyanın mərkəzi motivini qəfil vuran neft fontanı, yəni buruğun partlayışla neft püskürməsi təşkil edir. Kompozisiyanın sol hissəsində yerin dərinliyindən yüksələn neft axını, çevrəsində dağılan konstruksiyalar, yerə səpələnmiş texniki detallar və sağ tərəfdə dayanmış işçilər obrazı ilə rəssam sənaye prosesinin dramatik anını yüksək emosional gərginliklə təqdim edir. Bu gərginlik həm forma, həm işıq-kölgə, həm də xəttin ritmik dinamizmi ilə yaradılıb. Maral Rəhmanzadə bu əsərində litoqrafiyanın plastik imkanlarından maksimum dərəcədə istifadə edib. Neft fontanının sıx və tünd ştrixlərlə verilmiş parlaq və vahiməli yüksəlişi kompozisiyanın dramatizmini artırır. Qrafik

təzadlar – tünd kütlənin arxa plandakı işıqlandırılmış buruqlarla ziddiyyəti – rəssamın işıq-kölgə effektini necə yüksək ustalıqla həll etməsini göstərir. Sol tərəfdəki dağıntılar və sağdakı fəhlələrin nisbətən sakit dayanışı arasında formaca disbalans olsa da, bu, məhz hadisənin qəfil və gözlənilməz xarakterini təsvir etmək məqsədi daşıyır.



**Maral Rəhmanzadə. “Fəvvarə”. 1940.**

Bu əsərdə Maral Rəhmanzadə sənaye prosesinə yalnız texniki və realist baxışla deyil, həm də estetik metaforik yanaşır. Neftin fışqırması yalnız texniki hadisə deyil, həm də simvolik “partlayış”, yəni insanla sənaye arasındakı qarşıdurmanın sanki kulminasiya nöqtəsidir. Burada həmçinin buruqlar və texniki avadanlıqlarla yanaşı, fonun dumanlı, qatı atmosferi təbiətin sərt və nəzarətsiz gücünü ifadə edir.

“Fəvvarə” əsərində insan fiqurları kiçik və olduqca həssas təsvir edilib. Belə ki, onlar təbiətin gücünə nəzarət etməyə çalışsalar da, bu gücün qarşısında

zəif görünürlər. Bu, Maral Rəhmanzadənin öz yaradıcılığında bəzən ideoloji çərçivədən kənara çıxaraq hadisələri poetik və tənqidi baxışla təqdim etməsinin əyani göstəricisidir.

Əsərin 1940-cı ildə yaradılması xüsusi əhəmiyyət daşıyır. Belə ki, II Dünya Müharibəsi ərəfəsində neftin strateji resurs kimi önəmi artır və bu zaman Azərbaycanda neft sənayesinə böyük diqqət yetirilirdi. Rəssam bu kontekstdə sənayeləşmə ideyasını həm ideoloji, həm də bədii baxımdan qrafik bir əsərə çevirmişdir.

Maral Rəhmanzadənin 1947-ci ildə ərsəyə gətirdiyi "Neft" silsiləsinə daxil olan əsərlər içərisində "Mancanaq - neft çıxaran qurğu", "Dənizdə buruqlar", "Tanker dənizə çıxır" və s. qrafik əsərləri xüsusilə seçilir.

Rəssamın "Mancanaq – neft çıxaran qurğu" əsərində ön planda neft çıxaran qurğu – mancanaq olduqca detallı və texniki cəhətdən dolğun təsvir olunub.

Rəssam neft sənayesinin mexaniki strukturunu yalnız texnoloji informasiya daşıyıcısı kimi deyil, eyni zamanda bədii simvol kimi təqdim edir. Dərinlik perspektivi və struktur elementlərinin təkrarı (buruqlar, bacalar, estakadalar) ilə kompozisiyada müəyyən ritmik quruluş yaradılıb. Bu əsərdə avtolitoqrafiya texnikasının imkanlarından istifadə edilərək tünd və açıq sahələr arasında kəskin təzad yaradılıb. Bu təzadlar diqqəti birbaşa əsas elementlərə – mancanağa və buruqlara yönəldir. İşıq-kölgə arasında balans, tünd ləkələrin sıxlığı və səmadakı buludların dolğun teksturası texniki prosesə romantik-simvolik məna yükü qatır. Qeyd edək ki, əsərdə təsvir olunan mancanaq və onun ətrafındakı texniki qurğular yalnız texnologiya deyil, eyni zamanda insan əməyinin gücünü təcəssüm etdirən struktur kimi təqdim edilib. Rəssam buruqları aşağı baxış nöqtəsi ilə təqdim edərək onların monumental təsirini artırmağa nail olmuşdur.

Bunu da qeyd edək ki, əsərin yaranma tarixi (1947) II Dünya Müharibəsindən sonrakı bərpa dövrünə təsadüf edir və həmin illərdə sovet dövrü təsviri sənətində texniki tərəqqi, əmək və sənaye rəmzləri ön planda dayanırdı. Bu əsərdə Maral Rəhmanzadə neft buruğunu sadəcə texniki obyekt deyil, həm də ideoloji simvol kimi təqdim etmişdir. Belə ki, burada insanın zəhməti,

mühəndis düşüncəsi və sənaye üzərində texnoloji üstünlük qabarıq şəkildə ifadə olunmuşdur.

Eyni zamanda bu təsvirin arxa fonunda yerləşən tüstü bacaları və buruqların ritmik çoxluğu sənaye irəliləyişinin dönməzliyini simvollaşdırır. Bu, "əməyin estetikası" anlayışının təsviri sənətdə necə ustalıqla təqdim edildiyini nümayiş etdirir.



**Maral Rəhmanzadə. "Mancanaq – neft çıxaran qurğu".**
**"Neft" silsiləsindən. 1947.**

Rəssamın "Neft" silsiləsinə aid olan "Tanker dənizə çıxır" adlı son əsərində əks olunmuş ay işığında parıldayan sakit dəniz, Bakının əlvan işıqları və ağır-ağır hərəkət edən neft tankeri sənaye mənzərəsi ilə yanaşı, həm də lirik duyğularla zəngin bir ovqat yaradır.

Maral Rəhmanzadənin qrafik əsərlərində borular, dəmir çənlər, sərt landşaftlar belə özünəməxsus estetik dəyərlə təqdim olunur. İlan kimi qıvrılan boruların ritmik xətti, buruqların estakadalar üzərindəki yerləşməsi, tankerlərin

uzaqlara aparan obrazları onun yaradıcılığında yeni – sanki bir qədər lirik ovqatlı sənaye mənzərəsi idi. Bu lirika bəzən mədənlərin sərt mənzərəsinə köçürülmüş poetik duyumla ifadə olunur. Bu mənada rəssamın "Neft nəqli" (1947), "Neftçilər tankerdə" (1956-1957) və s. əsərlərini qeyd edə bilərik.

Rəssam üçün əsas məqsəd əsərlərində insan zəhmətini qabartmaq, əmək qəhrəmanlarını simvolik obrazlara çevirmək və neft sənayesinin fonunda insan-sənaye mübarizəsinin dramatizmini göstərmək olmuşdur. Onun "Fırtınada" (1957), "Ərzaq gətirildi" (1957) və s. əsərləri məhz bu qəbildəndir. Rəssamın neft mövzulu bəzi qrafik əsərlərində ("Yeddi gəmi adası", 1957; "Günəş şüaları", 1971) insan iradəsinin və texnoloji nailiyyətlərin təbiətlə harmonik və ya gərgin qarşılaşması ön plana çəkilir.

"Bizim Xəzərdə" (1957) albomuna daxil olan silsilə də rəssamın yaradıcılığında mühüm yer tutan neft mövzusunun davamı idi. XX əsrin 30-cu illərindən etibarən sənayedə baş verən sıçrayışlar – zavodların, dəmir yollarının, su elektrik stansiyalarının və xüsusilə də Neft Daşlarının salınması sənətkarların maraq dairəsinə daxil olur. Neft Daşlarında ekspedisiyada iştirak edən Maral Rəhmanzadə burada qəhrəmanlıqla dolu əmək mühitini bədii yaradıcılıq əsərinə çevirdi. O, batmış gəmidə neftçilərlə birgə yaşadı, fırtınalara sinə gərdi və buruqların əhatəsində bənzərsiz günbatan mənzərələrini ("Fırtına zamanı", 1957; "Estakada", 1957) yaratdı.

*"O zaman zavod və fabriklər, neft və qaz mədənləri, su elektrik stansiyaları, dəmir yolları, yeni şəhərlərin tikildiyi sovetlər ölkəsində müşahidə olunan industrial bum, gündəlik insan əməyinin coşqun romantikası ilə səciyyəvi idi. Çox vaxt təhlükəli və çətin insan əməyi heyrət və sevinc doğururdu. İlk dəfə dirəklər üzərində tikilən unikal şəhərə – Neft Daşlarına ayaq basan rəssamın ürəyinə məhz bu hisslər hakim kəsilmişdi. Onu təhlükəli və qəhrəman əməyin romantikası, dəmir buruqların sərt gözəlliyi cəlb etmişdi" (Məlikova Ş. 2011, s.63).*

Panoramlı kompozisiyalarda üfüq xəttinin qəsdən aşağı salınması, iri planlı estakadalar və buruqların monumental təsviri bu əsərlərə dinamika və ideoloji məzmun qazandırır. Bakıda keçirilən fərdi sərgi və Neft Daşlarındakı nümayişlər Maral Rəhmanzadənin bu sahədəki fəaliyyətini geniş tamaşaçı

kütləsinə tanıtdı. Onun "Bizim Xəzərdə" (1957) albomuna daxil edilən 15 əsəri 1957-ci ildə Moskvada nəşr olundu və bu silsilə sonradan Londonda, Kral Sənət Akademiyasında nümayiş etdirildi. Britaniya tənqidçiləri onun əsərlərini yüksək qiymətləndirərək müasir qrafikanın dəyərli nümunələri sırasında qeyd etdilər və London nəşrlərində Maral Rəhmanzadə haqqında ayrıca materiallara yer verildi.

Maral Rəhmanzadənin yaradıcılığında neft mövzusu təkcə sənayeləşmiş Azərbaycan cəmiyyətinin reallıqlarını əks etdirmək deyil, həm də bu reallıqları estetik dəyərlərə çevirmək baxımından xüsusi əhəmiyyətə malikdir.

## Ədəbiyyat siyahısı

Axundova N. (2014). Azərbaycan rəssamlarının yaradıcılığında sənaye mənzərəsi janrı. Sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. Bakı. 130 s.

Məlikova Ş. (2011). Maral Rəhmanzadə. Rəngkarlıq və qrafika. Bakı: Şərq-Qərb. 240 s.

Əsədova X. (2013). Maral Rəhmanzadə. Qrafika, rəngkarlıq. Bakı: Şərq-Qərb. 104 s.

Əfəndi R. (2007). Azərbaycan incəsənəti. Bakı: "Şərq-Qərb". 160 s. + 112 s. (ill.)

**Алескерова Севиндж Алекбер кызы**

## Художественно-эстетическое выражение темы нефти в творчестве народной художницы Марал Рахманзаде

### Резюме

В середине XX века в азербайджанском изобразительном искусстве индустриальная тема, особенно мотивы, формирующиеся вокруг нефтяной отрасли, занимали важное место в контексте социалистического реализма. В этой области особого внимания заслуживает роль народной художницы Марал Рахманзаде. Начиная с 1940-х годов, в частности, ее графические серии «Нефть» (1947) и «Нефтяные камни» (1956-1957), а также работы, вошедшие в альбом «На нашем Каспии» (1957), с исторической и художественной последовательностью представляют богатую нефтяную панораму Апшеронской земли. Придавая эстетическую форму таким технологическим элементам, как нефтяные вышки, резервуары, эстакады,

она превратила индустриальный мотив в лирическое настроение. Героизация труда рабочих, художественное решение противостояния человека и индустрии, а также образы нефтяников стали одной из центральных тем в ее творчестве. Соединяя суровость индустриального пейзажа с поэзией, Марал Рахманзаде стала одной из художниц, особо обращавшихся к нефтяной теме в азербайджанском изобразительном искусстве.

В статье анализируется, как эта тема представлена в творчестве народной художницы Марал Рахманзаде, и значение ее произведений на нефтяную тематику («Фонтан», «Танкер выходит в море», «Нефтедобывающая установка», «Вышки в море», «Транспортировка нефти», «Нефтяные резервуары», «Богатства Каспия» и др.) в истории изобразительного искусства.

**Ключевые слова:** Марал Рахманзаде, азербайджанское изобразительное искусство, нефтяная тема, графика, социалистический реализм, индустриальный пейзаж, художницы.

**Alasgarova Sevinj Alakbar qizi**

## Artistic and Aesthetic Expression of the Oil Theme in the People`s Artist Maral Rahmanzade`s Work

### Summary

In the mid-20th century, the industrial theme in Azerbaijani fine art, particularly the motifs formed around the oil industry, held an important place within the context of socialist realism. In this field, the role of People's Artist Maral Rahmanzade is particularly noteworthy. Starting from the 1940s, especially her graphic series “Oil” (1947) and “Oil Rocks” (1956-1957), as well as the works included in the album “In Our Caspian” (1957), present the rich oil landscape of the Absheron land with historical and artistic consistency. By giving aesthetic form to technological elements such as oil rigs, tanks, and trestle bridges, she transformed the industrial motif into a lyrical mood. The heroization of workers' labor, the artistic resolution of the human-industry confrontation, and the images of oil workers became one of the central themes in her work.

Combining the harshness of the industrial landscape with poetry, Maral Rahmanzade became one of the artists who specifically addressed the oil theme in Azerbaijani fine art.

The article analyzes how this theme is presented in the work of People's Artist Maral Rahmanzade, and the significance of her oil-themed works (“Fountain”, “Tanker Goes to Sea”, “Oil Extraction Unit”, “Rigs in the Sea”, “Oil Transportation”, “Oil Tanks”, “Wealth of the Caspian” etc.) in the history of fine art.

**Key words:** Maral Rahmanzade, Azerbaijani fine art, oil theme, graphics, socialist realism, industrial landscape, women artists

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 13.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 20.05.2025***
***Ekspert rəyi: Aslan Xəlilov***